Uşaqlar üçün Müqəddəs Kitab

təqdim edir



# Təqibçidən Təlimçiyə

Müəllif: Edward Hughes

İllüstrasiya edən: Janie Forest

Uyğunlaşdıran: Ruth Klassen

Tərcümə edən: Günay Əsədova

Alastair Paterson

Təqdim edən: Bible for Children
www.M1914.org

©2020 Bible for Children, Inc.
Lisenziya: Bu kitabı satmamaq şərti ilə kitabın surətini çıxarda bilmək hüququna maliksiniz.



Allah erkən imanlı cəmiyyətində Öz xalqı vasitəsilə böyük işlər etdi.

Filip adlı bir şəxs çoxlu adam olan şəhərdə İsa haqqında danışmaqla məşğul idi.  Ancaq Allah onu səhralığa göndərdi. Nə üçün?



Allah səhralıqda bir səyahətçinin, Həbəşli bir hərəmağasının olduğunu bilirdi.  O, evə gedirdi və xüsusi bir Kitab oxuyurdu. Onun hansı kitab olduğunu tapa bilərsən?



Filip
Allaha itaət
edəndə, Allah
onu heç nə başa
düşmədən Allahın
Sözünü oxuyan hökmdarın
düz yanına apardı.  O, Filipi
ona qoşulmağa dəvət etdi.

Hökmdar Filipdən soruşdu: “Bunun mənası nədir?”  Araba səhralıq yolla yırğalana-yırğalana getdikcə, Filip ağzını acid və Yazılardan başlayaraq ona İsa haqqında təbliğ etdi.





Afrikalı hökmdar qısa müddət sonra Müqəddəs Kitabın müjdəsinə, İsa Məsihin Allahın Oğlu olduğuna iman etdi.

Onda Filip dedi: “Əgər bütün qəlbinlə iman edirsənsə, mümkündür”.  Hərəmağası cavab verdi: “İsa Məsihin Allahın Oğlu olduğuna inanıram”.
Filip onu suyun yanına apardı
və vəftiz etdi.





Sudan çıxanda Rəbbin Ruhu Filipi götürüb oradan uzaqlaşdırdı.  Filipi bir daha görməyən hərəmağası sevinə-sevinə yoluna davam etdi. Beləliklə, Afrikalı hökmdar bir daha onu görmədi.

O, sevinərək Həbəşistana qayıtdı!

Amma bəzi adamlar məsihçilərə nifrət edirdilər.  Filipin dostlarından biri olan Stefan İsa haqqında danışmasını istəməyən qəzəbli insanlar tərəfindən öldürüldü.



Məsihçilərə qarşı hədə-qorxular və qatilliklə nəfəs alan Şaul baş kahinin yanına getdi və İsanın ardınca gedən kişi və qadınları zindana atmaq üçün ona səlahiyyət verən məktublar aldı.





Yazıq Tarsuslu Şaul! O heç bilmirdi ki, Allahın xalqını incidəndə, əslində o, Rəbb İsanın Özünü incidirdi. Allah Şaulu dayandırmalı idi. Amma necə?

Allah Şaulu "Həbs etdi!"  Şaul Dəməşq şəhərinə gedərkən göydən gələn parlaq işıq onun ətrafında parladı.  Şaul yerə yıxıldı.  Sonra o, bir Səs eşitdi.





Şaul ucadan dedi: “Ey Ağam, Sən kimsən?” “Mən sənin təqib etdiyin İsayam”. Titrəyərək və heyrət içində Şaul soruşdu: “Ağa, nə etməyimi istəyirsən?” Rəbb ona dedi: “Qalx ayağa, şəhərə get və nə etmək lazımdırsa, sənə deyiləcək”.

Şaulla olan adamlar da Səsi eşitdilər, ancaq heç kimi görmədilər.  Şaul yerdən qalxdı, o, kor olmuşdu!  Şaulla olan adamlar onu Dəməşqə apardılar.



Şəhərdə Şaul üç gün görmədi, o, nə yedi, nə də içdi.  Bəlkə o, vaxtını Dəməşq yolunda rastlaşdığı Rəbb İsaya dua edərək keçirirdi.



Allah hər şeyi planlaşdırmışdı. Dəməşqdə Xananya adlı bir şagird var idi.  Rəbb onu Şaula kömək etmək üçün göndərdi. Xananya qorxdu.  Ancaq Allaha itaət etdi.  O, əllərini Şaulun üzərinə qoyanda, onun gözləri açıldı və Şaul Allahın Müqəddəs Ruhu ilə doldu.



Şaul vəftiz oldu.
Sonra yemək yedi.
O, yemək yeyəndən
sonra qüvvətləndi.
Şaula güc lazım idi.
Onun görəcəyi
mühüm işlər var idi.



Şaul dərhal Məsihin Allahın Oğlu olduğunu Sinaqoqda təbliğ etdi. Orada olanların hamısı təəccübləndilər və dedilər: “Məsihçiləri məhv edən bu deyilmi?” Bəziləri Şaulu öldürmək üçün sui-qəsd fikirləşdilər.





Şaulun yeni düşmənləri, əgər Şaul şəhər qapılarından şəhəri tərk etməyə çalışarsa, onu öldürmək üçün pusqu qurmuşdular. Ancaq onun yeni dostları, məsihçilər gecə ilə onu böyük bir səbətin içərisində şəhər divarlarından aşağı endirdilər. Ondan sonra məsihçiləri təqib edən Şaul yeni Ağasının, Rəbb İsa Məsihin sadiq ardıcılı kimi yaşadı.

Təqibçidən Təlimçiyə

Allahın Sözü, Müqəddəs Kitabdan
olan bir hekayədir

Həvarilərin İşləri 8-9

“Kəlamının açıqlanması nur saçır”.
Məzmur 119:130


Son

Bu Müqəddəs Kitab hekayəsi bizə, bizi yaradan və Onu tanımağımızı istəyən Allahımızdan bəhs edir.

Allah, Onun günah adlandırdığı pis şeyləri etdiyimizi bilir. Günahın cəzası ölümdür, lakin Allah səni o qədər çox sevir ki, O, Öz yeganə Oğlunu, İsanı Çarmıxda ölmək və sənin günahlarına görə cəzalandırılmaq üçün göndərdi. Sonra İsa dirildi və Göylərə getdi! Əgər sən İsaya inansan və Ondan günahlarını bağışlamasını diləsən, O, bunu edəcək!; O indi gələcək və daxilində yaşayacaq və sən əbədiyyən Onunla birlikdə yaşayacaqsan.

Əgər sən bunların həqiqət olduğuna inanırsansa, onda bunu Allaha de: Əziz İsa, mən inanıram ki, Sən Allahsan və mənim günahlarıma görə ölmək üçün insan oldun və indi Sən yenidən yaşayırsan. Xahiş edirəm, həyatıma gəl və mənim günahlarımı bağışla ki, mən indi yeni həyata malik ola və bir gün Səninlə birlikdə əbədiyyən yaşaya bilim. Sənə itaət etməkdə və Sənin övladın kimi yaşamaqda mənə kömək et. Amin.

**Müqəddəs Kitabı oxu və hər gün Allahla danış! Yəhya 3:16**